**“Gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi”** ***elektron gömrük xidmətindən istifadə təlimatı***

Xidmətdən istifadə etmək üçün www.e-gov.az saytına daxil olmaqla “Bütün xidmətlər” bölməsi seçilir:




2-ci addımda ölkə üzrə fəaliyyət göstərən elektron xidmətlərin ümumi siyahısından «Qurumlar» bölməsindən “Dövlət Gömrük Komitəsi” seçilir:




3-cü addımda isə **“Gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi”** xidməti seçildikdən sonra aşağıdakı kimi səhifə açılır (Şəkil 1):




**Şəkil 1.**

1-ci şəkildən də göründüyu kimi müəssisə, VÖEN və ya GÖÖEN, ödəniş aparılacaq gömrük bəyannaməsinin və ya cərimə qəbzinin nömrəsi, gömrük sərhədindən keçdikdə nəqliyyat vasitələrinə verilmiş barkod və s. digər məlumatlar daxil edilir və "Axtar" düyməsi sıxılır. Tutaq ki, hər hansı gömrük bəyannaməsi üzrə olan ödənişləri həyata keçirmək lazımdır. Bunun üçün müəssisə, bəyannamə nömrəsi, təhlükəsizlik kodu daxil edilir , "Axtar" düyməsi sıxılır və ekranda ödənişi tam və ya qismən ödənilməsini göstərən aşağıdakı səhifə açılır (Şəkil 2):




**Şəkil 2.**

Əgər qismən ödəniş aparmaq lazımdırsa, "Ödəniş məbləği" qrafaslnda məbləğ yazılır. Tam ödəniş aparılması üçün isə "Tam ödəniş" düyməsi sıxılır. Tutaq ki, biz tam

ödəniş aparmaq istəyirik və bu halda “Tam ödəniş” düyməsini sıxırıq və bu halda növbəti ekran görünür (Şəkil 3):




| Müəssisə | Hesabın sahibi | Hesab | Qaimə nömrəsi | Ödənişin növü | Xidmət haqqı ( AZN ) | Ödəniş məbləği ( AZN ) |
|---|---|---|---|---|---|---|
| Dövlət Gömrük Komitəsi Yevlax Gİ | XXXXXXXXXXXXXX | 2200604521 | 01182000007559_1 | 142317* | 0.83 | 550.00 |
| Dövlət Gömrük Komitəsi Yevlax Gİ | XXXXXXXXXXXXXXX | 2200604521 | 01182000007559_2 | 114120* | 0.40 | 99.00 |
| Dövlət Gömrük Komitəsi Azterminalkompleks Birliyi (ƏDV) | XXXXXXXXXXXXXXX | 2200604521 | 01182000007559_3 | 114111* | 0.40 | 5.40 |
| Dövlət Gömrük Komitəsi Yevlax Gİ | XXXXXXXXXXXXXXX | 2200604521 | 01182000007559_4 | 115200* | 15.00 | 14,875.88 |
| Dövlət Gömrük Komitəsi Azterminalkompleks Birliyi | XXXXXXXXXXXXXX | 2200604521 | 01182000007559_5 | 802001* | 0.40 | 30.00 |
| | | | | | 17.03 | 15,560.28 |

**Şəkil 3.**

Ödənişi həyata keçirmək üçün “Ödəmək” düyməsi, geri qayıtmaq üçün isə “Geri” düyməsi sıxılır. “Ödəmək” düyməsini sıxmazdan əvvəl ödəniş kartının ilk 6 rəqəmi daxil edilir. Ödəniş kartının ilk 6 rəqəmini daxil edib, “Ödəmək” düyməsini sıxdıqda aşağıdakı növbəti səhifə açılır (Şəkil 4):




**Şəkil 4.**

4-cü şəkildə də göründüyü kimi ödəniş kartının 6 rəqəmdən sonrakı rəqəmlərini və digər zəruri məlumatları daxil edərək “Təsdiq” düyməsini sıxaraq ödənişi başa çatdırmaq olar. Əks halda “İmtina” düyməsindən istifadə olunur.

Analoji qayda ilə cərimələri və nəqliyyat vasitəsi gömrük sərhədindən keçdikdə yol vergilərini real vaxt rejimində odəmək olar.